**Rusiyadan idxal edilən günəbaxan tumununda aşkarlanan uyğunsuzluğa dair məlumat**

**(7 iyul 2023)**

İdxalatçı şirkət “Seyfi 22” MMC-nin Rusiya Federasiyasından idxal etdiyi “MİQ” MMC-nin istehsalı olan (ixracatçı “Darkuş Aqro” MMC) 20 ton günəbaxan tumu məhsulunda Agentlik əməkdaşları tərəfindən götürülmüş nümunələrin müayinələri nəticəsində Aflatoksin B1 aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müvafiq tədbir görülüb. Həmçinin istehsalçının respublikamıza həmin məhsulu idxalına müvəqqəti qadağa qoyulub və ixracatçı ölkənin aidiyyəti qurumuna müvafiq bildiriş göndərilib.